*İsmayıllı*

# İvanovka beynəlmiləl kənddir



**Bir ildən sonra 180 illiyi qeyd olunacaq İvanovka nəinki İsmayıllıda, respublikamızda, hətta keçmiş Sovetlər Birliyi məkanında beynəlmiləl yaşayış məntəqəsi kimi tanınırdı. Bura rusların (malakanların) kompakt yaşadığı, abad, firavan, bütün kommunikasiyaları müasir səviyyədə qurulan əməksevərlik, qonaqpərvərlik mühiti ilə əhatə olunan bir kənddir. Əsasən rusların və eyni zamanda azərbaycanlıların, ləzgilərin yaşayıb çalışdıqları İvanovkada Azərbaycan mentalitetinə böyük hörmət və məhəbbət göstərilməklə yanaşı, müxtəlif millət və xalqların milli adət-ənənələri ön planda saxlanılır, beynəlmiləlçilik, xalqlar dostluğu prinsiplərinə ciddi əməl olunur.**

Buradakı təsərrüfata 43 il ardıcıl olaraq Nikolay Nikitin başçılıq etmişdir. Azərbaycan müstəqillik qazanandan sonra ölkəmizdə aparılan iqtisadi islahatlarla bağlı kolxozlar ləğv olunub, torpaqlar, əmlaklar vətəndaşların ixtiyarına verilən vaxtda ulu öndər Heydər Əliyevin xeyir-duası ilə yeganə olaraq İvanovkada idarəetmənin kolxoz forması saxlanılmışdır. Əlbəttə, bu addım hər şeydən öncə təcrübəli təsərrüfatçı, Sosialist Əməyi Qəhrəmanı, prinsipial, tələbkar, yüksək idarəetmə qabiliyyətinə malik Nikolay Nikitinin gücünə, səriştəsinə, vədə əməl etmək qabiliyyətinə olan inama söykənilərək atılmışdı. Ulu öndər həmişə olduğu kimi, bu etimadında da yanılmadı, əksinə, bu etimadla Azərbaycanda beynəlmiləlçiliyə daim böyük qayğı göstərildiyini bir daha təsdiqlədi. Nikolay Nikitin bu etimadı doğrultmaq üçün əvvəlkindən də qat-qat məhsuldar fəaliyyətə başlamaqla İvanovkanın şan-şöhrətini daha da artırdı. N.Nikitin fəaliyyəti dövründə İvanovkaya əkinçilik-təsərrüfatçılıq mədəniyyəti, işə məsuliyyətli yanaşma, əməksevərlik gətirib. Kənd Təsərrüfatı istehsalı və emalı sahəsində böyük təcrübə qazanıb. Ümummilli liderimiz Heydər Əliyev bu təcrübə əsasında 1981-ci il iyul ayının 24-də heyvandarlığın və yemçiliyin inkişafı ilə bağlı respublika seminarı keçirib. Bütün rayonların rəhbərləri, icrakom sədrləri və kənd təsərrüfatı idarələri rəislərinin, Kənd Təsərrüfatı Nazirliyinin məsul əməkdaşlarının iştirak etdiyi seminar vasitəsilə o zamankı kolxozun təcrübəsi hər bir təsərrüfatda tətbiq olunmağa başlayıb. Ulu öndərin hərtərəfli dəstəyi və qayğısı ilə Nikitin İvanovka boyda bir əmək abidəsini qurdu, sonra dünyasını dəyişdi. Cənab Prezident İlham Əliyev malakan icması nümayəndələri ilə görüşəndə demişdi ki, kolxoz tarixdir, tarixi qorumaq lazımdır. İndi kolxozun fəaliyyəti üçün rayon icra hakimiyyətinin rəhbərliyi ilə hüquqi əsas yaradılıb. Təsərrüfat artıq hüquqi şəxs kimi fəaliyyət göstərir.

Yaxşı haldır ki, Prezident İlham Əliyevin insana qayğı göstərmək, xalqa xidmət etmək tapşırığı rayon icra hakimiyyətinin rəhbərliyi tərəfindən bütün idarə, müəssisə və təşkilatlarla birgə məsuliyyətlə həyata keçirilir. Elə Nikolay Nikitinin 90 illiyinin rayon miqyasında, millət vəkillərinin, çoxsaylı qonaqların, İvanovkanın nümayəndələrinin, geniş ictimaiyyətin iştirakı ilə yüksək səviyyədə keçirilməsi məhz bu məsuliyyətdən irəli gələn tədbirlərdən biridir.



Beynəlmiləlçiliyə və xalqlar dostluğuna söykənən bu tədbir rayonda multikulturalizmə böyük dəyər verildiyini bir daha nümayiş etdirdi. Nikolay Vasilyeviçin həyat və fəaliyyətini əks etdirən film hamının böyük marağına səbəb oldu. Ümummilli liderin İvanovkaya səfərindən fraqmentlər də filmdə əksini tapmışdı. N.Nikitin adına kolxozun müşahidə şurasının sədri İvan Prokofyev Nikitinin həyat və fəaliyyəti barədə danışdı. O, bildirdi ki, rayonda yaranmış ənənəyə sadiq qalaraq ən yaxşı oxuyan ivanovkalı tələbə üçün Nikolay Nikitin adına təqaüd təsis olunub. Həmin təqaüdün Bakı Dövlət Universitetinin tarix fakültəsinin III kurs tələbəsi Şəhla Vəliyevaya təqdim olunmasının özü də beynəlmiləl kənddə multikultural ideyaların dərin kökləri olduğunu bir daha təsdiqlədi. Tələbə isə öz növbəsində minnətdarlığını bildirdi, yaxşı mütəxəssis kimi yetişib, kəndə qayıdacağını söylədi. Millət vəkili Novruz Aslanov, Nikitinlə işgüzar və səmimi münasibətlərdə olmuş millət vəkili Tahir Kərimli çıxış edib bugünkü İvanovkanın formalaşmasında xüsusi xidmətləri olmuş keçmiş sədrin nümunə olacaq keyfiyyətlərindən danışdılar. Millət vəkili Mixail Zabelin çıxışında bildirdi ki, Mərkəzi Komitədə işləyərkən Nikolay Vasilyeviçlə çox görüşüb, onun təcrübəsi, iş üsulları, idarəetmə metodları ilə yaxından tanış olub. Onu əsl Heydər Əliyevçi kimi tanıyıb. Səmimi qardaşlıq şəraitində İvanovkanın bu səviyyəyə çatmasına görə Zabelin Azərbaycan xalqına təşəkkürünü çatdırdı.

İsmayıllını əsl multikultural və qardaşlıq münasibətlərinin formalaşdığı məkan adlandırdı. İsmayıllı Humanitar və Texnologiya Kollecinin direktor əvəzi Sevda Qasımova Nikitinin idarəetmə və təsərrüfatçılıq təcrübəsinin, İvanovkadakı çoxistiqamətli mədəniyyətin, torpağa və əməyə münasibətin nəsillərə nümunə olduğundan söhbət açdı.

Rayon icra hakimiyyətinin başçısı Mirdamət Sadıqov Nikolay Nikitin və İvanovkanın keçmişi-bu günü barədə geniş danışdı. Qeyd etdi ki, Azərbaycan elmi, ədəbiyyatı qarşısında böyük xidmətləri olan, əmək və döyüş cəbhələrində qəhrəmanlıq göstərən insanların yubileylərinin, xatirə gecələrinin, anım günlərinin keçirilməsi rayonda çox gərəkli bir ənənə halını alıb. Nikolay Vasilyeviçə, əmək qəhrəmanına hörmət və ehtiram olaraq xatirə gecəsinin keçirilməsi də bu ənənələrdəndir. İcra başçısı həmçinin vurğuladı ki, bir neçə gün əvvəl ləzgi millətindən olan Rza İsmayılovun 80 illiyi də keçirilib. Belə tədbirlərlə həm insanlara xidmətlərinə görə dəyər verilir, həm də multikulturalizmin rayonda dərin kökləri olduğu bir daha təsdiqlənir.

Lahıc qəsəbəsi tarixən icma formasında idarə olunub. İdarəetmədə ağsaqqalların və ictimai fəalların birgə məsləhətləşmələri əsas götürülüb. Bir neçə ildir ki, Lahıcda həmin icma idarəetməsi yolu ilə bir sıra problemlər həll olunur. İdman kompleksinin və Lahıcla Ərəgit arasındakı körpünün tikilməsi, Lahıcın və Ərəgit məhəlləsinin daş döşəməli küçələrinin əsaslı təmiri, küçələrin kənarlarında divarların ənənəvi Lahıc memarlığına uyğun tikilməsi, Hamam dərəsindəki kanalizasiya şəbəkəsinin yenidən qurulması və əvvəlkindən daha işlək vəziyyətə salınması, bazar meydanında icma bazarının və ikimərtəbəli icma evinin istifadəyə verilmə ərəfəsində olması Azərbaycanda gedən sürətli inkişafın Lahıc qəsəbəsinə gətirdiyi yeniliklər kimi qiymətləndirilir. Yaxşı haldır ki, bu kimi xeyirxah əməlləri az-çox imkanlı ziyalılar, iş adamları milli-mənəvi dəyərləri əsas götürərək həyata keçirirlər.

"İsmayıllı rayonunun inkişafı" İctimai Birliyinin və iş adamlarının maliyyə dəstəyi, qəsəbə icma nümayəndələrinin fəal iştirakı ilə başa gələn 180 nəfərlik "Lahıc mərasimlər sarayı" həmin insanların ən uğurlu işlərindən biridir. Bu günlərdə "Lahıc mərasimlər sarayı"nın açılışı olub. Burada çıxış edən rayon icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqov bu humanitar aksiyanın həyata keçirilməsi ilə əhalinin məişətinə və ümumilikdə həyatına gətirilən rahatlıq üçün layihə müəlliflərinə təşəkkürünü bildirdi. Dedi ki, Lahıcın problemləri birgə qüvvə ilə, özünəinamla, qarşılıqlı dəstəklə həll olunur. "Mərasimlər sarayının" açılışı Prezident İlham Əliyevin xalqa xidmət tapşırığının uğurlu icrasıdır. Lahıc qəsəbəsinin, Ərəgit məhəlləsinin sakinlərinin xidmətində olacaq sarayda bütün növ mərasimlərin, dövlət və dini bayramların, toplantıların, konsert tamaşalarının, yubileylərin keçirilməsi üçün hamı üçün hər cür şərait və imkan yaradılmışdır.

İctimai Birliyin sədri Hüseynağa Kamilzadə çıxışında bildirdi ki, mərasimlər sarayından istifadə pulsuz, mövcud qaydalara uyğun olacaqdır. Din xadimləri, ziyalılar çıxış edib bu vacib xidmət obyektini ərsəyə gətirənlərə minnətdarlıqlarını bildirdilər.

Xeyirxah əməl sahibləri açılış günündə qonaqlarla və sakinlərlə birgə nahar edib, qəsəbənin gələcək inkişafı ilə bağlı fikir mübadiləsi apardılar.

**Rasim AMANOV,**
**"Respublika".**